AZƏRBAYCAN müəllimi
Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

ABDULLA ŞAİQ - 120



Başlıq kimi verdiyimiz sözlər hörmətli professor Yaşar Qarayevindir.

...Abdulla Şaiq 1900-cü ildə Bakıya gəlmişdir. Bir il sonra N.Nərimanovun iştirak etdiyi komissiyada Azərbaycan dili və ədəbiyyat müəllimi hüququ qazanmaq üçün böyük uğurla imtahan verir və müvafiq şəhadətnamə alır. Pedaqoji fəaliyyəti də elə bu ildən başlanır. Müəllim kimi fəaliyyətə başladığı ilk vaxtlarda kifayət qədər dərs saatı olmamışdır. Bə'zən xəstə müəllimləri əvəz etmiş, çox hallarda zərurət üzündən bir neçə məktəbdə dərs deməyə məcbur olmuşdur. Nəhayət Şaiq müəllim 1911-ci ildən Bakı realnı məktəbində əsas, aparıcı pedaqoq kimi fəaliyyət göstərməyə başlayıb. Sonralar gimnaziyada, ali məktəblərdə dərs deyib.

"AZƏRBAYCAN PEDAQOJİ İNTİBAHININ GÖRKƏMLİ NÜMAYƏNDƏSİ"

Abdulla Şaiq əslində, öz pedaqoji və metodiki görüşlərini də tədris prosesində formalaşdırırdı. Azərbaycan klassiklərinin əsərlərindən, M.Ə.Sabir və A.Səhhətin əsərlərindən, öz yaradıcılığından, həmçinin etdiyi tərcümələrdən tərtib etdiyi dərsliklərə elə səciyyəvi nümunələri salırdı, şagirdlərə mənimsədirdi. Bu ədəbi-pedaqoji nümunələr, tərbiyəvi xarakter daşıyırdı, digər tərəfdən təmiz, Azərbaycan dilini azərbaycanlı balalara öyrətmək, onlara bədii ədəbiyyatı dərk etdirmək və estetik zövq aşılamaq məqsədi güdürdü. Odur ki, xalq yazıçısı İ.Əfəndiyev haqlı olaraq yazır: "Biz ilk dəfə gözümüzü Şaiqin şe'rləri, nağılları ilə açmışıq".

Həqiqətən, çox az məktəbli tapılar ki, Şaiqin "Keçi", "Uşaq və dovşan", "Quzu", "Xoruz", "Tıq-tıq xanım", "Yaxşı arxa", "Tülkü Həccə gedir", "Şələquyruq", "Cücə" və s. əsərlərini əzbər, yaxud məzmununu bilməsin.

A.Şaiq yazıçılığa onun pedaqoji fəaliyyəti səbəb olub. Sonralar A.Şaiq özü bu haqda yazırdı: "Mən həmişə yazıçılığımdan çox müəllimliyimlə fəxr etmişəm. Müəllimlikdən aldığım zövqü heç bir şeydən ala bilmirəm. Axı mən yazıçılıqda da müəlliməm, məni yazıçılığa sövq edən də, əsasən, müəllimlik olmuşdur. Həqiqi müəllimin fəaliyyət dairəsi yalnız məktəb deyil, bütün cəmiyyətdir, xalqın həyatıdır... Dərs kitabları yazmaqla bərabər, uşaqlar üçün ədəbiyyatdan, ana dilindən yararlı vəsait də hazırlamalı oldum, hekayələr, şe'rlər, dramlar yazdım. Beləliklə də, müəllimliyi yazıçılıqla birləşdirdim".

Görkəmli ədib-pedaqoqun müəllimlik fəaliyyətinə və pedaqoji irsinə dair mənbələri, onlarca xatirəni nəzərdən keçirdikdə hər bir insan, xüsusilə ziyalı üçün çox vacib olan bir keyfiyyəti xüsusi vurğulanır: Şəxsiyyət, Şaiq şəxsiyyəti. Müasirləri, adlı-sanlı şagird və tələbələri birinci növbədə onun saf, təmiz, humanist və büllur şəxsiyyətinə diqqəti cəlb etmişlər. Məhz insani keyfiyyətlərinə, sadəliyinə və təvazökarlığına görə onu mələyə, peyğəmbərə bənzətmişlər.

1924-cü ildə Şaiq tələbələrindən birinin xatirə albomuna bu sözləri yazmışdı: "Yüksəlmək, həqiqi bəxtiyarlığa çatmaq istəyirsənsə, özünü deyil, başqalarını yaşatmağa çalış! Zira ki, həqiqi bəxtiyarlar cəmiyyət üçün yaşayanlardır!".

Oğlu, akademik Kamal Talıbzadə yazır: "Atam ailədə rəsmiyyəti sevməzdi. Uşaqla uşaq, böyüklə böyük idi. Onda xalq ruhu ilə aşılanmış sadəlik vardı. Mülayim, sakit və əhmallı, səbrli və təmkinli idi. Atam xoş rəftarı ilə bizə ən sərt adamdan daha çox tə'sir göstərə bilirdi. O özünü elə aparırdı ki, onun ən kiçik arzusunu yerinə yetirməmək ailə üzvləri üçün mümkün olmurdu. Ondakı mülayimlik, kövrəklik insana qayğı ilə möhkəm əlaqədar idi".

Abdulla Şaiqin pedaqoji fəaliyyətini, pedaqoji irsini bir neçə cəhətdən nəzərdən keçirmək olar.

1. Müəllimlik, müəllim nüfuzu barədə.

Bütöv şəxsiyyət olan Abdulla Şaiq müəllimdən, birinci növbədə, yüksək bilik və öz sənətinə (peşə yox!) fanatikcəsinə vurğunluq, parlaq və təmiz şəxsiyyət olmağı tələb edirdi. O deyirdi: "Hər işdə iste'dad lazım olduğu kimi, müəllimdə də iste'dad olmalıdır. Müəllim öz işini sevməsə, tədris etdiyi fənni də şagirdlərə sevdirə bilməz". Digər tərəfdən, müəllim yüksək nüfuz sahibi olmalıdır. Şaiq müəllimə görə pedaqoqun nüfuzu olmasa, tə'lim-tərbiyədə uğur qazana bilməz. Şagird öz müəlliminə inanmalı, ona hörmətlə yanaşmalıdır. Müəllim də eyni zamanda, şagirdlərinə e'timad göstərməli, e'tibar etməlidir".

Tələbələrindən birinin xatirəsi bu cəhətdən olduqca səciyyəvidir: "Sönük keçən bir dərsdə fəal tələbələrdən biri quzu kimi mələyir. Məsələ böyüyür. Şaiq müəllim işə qarışmalı olur, öz nüfuzu ilə müdiriyyəti sakitləşdirir və həmin tələbənin də iştirak etdiyi dərsdə deyir: "Mən inana bilmərəm və inanmıram ki, o tələbədən belə bir hərəkət baş vermiş olsun".

Bununla da hadisə ətrafındakı söz-söhbət qurtarır və bütün tələbələr, o cümlədən, "balskar" özləri üçün lazımi nəticə çıxarırlar.

İnsani münasibətlər son dərəcə kövrək münasibətlərdir. Şaiq müəllim fitrətən pedaqoq olduğundan və məsələnin bu cəhətini çox yaxşı bildiyindən öz yetirmələrinə böyük qayğı ilə, yoldaşcasına yanaşmış, ona görə də şagird və tələbələrin, işlədiyi pedaqoji kollektivlərin, bütün xalqımızın son dərəcə böyük hörmətini qazanmışdır.

A.Şaiq ədəbiyyat və dil sahəsində ən təcrübəli və müqtədir müəllim, məharətli tərbiyəçi kimi həmişə fərqlənirdi. Təsadüfi deyildir ki, onun mürəbbi (sinif rəhbəri) olduğu sinif ilin yekunlarına görə, əxlaqca hər zaman birinci olurdu.

O, müəllimdən gözəl danışığı, nitq qabiliyyətinə yiyələnməyi xüsusi tələb edirdi. Müəllim hər şeydən əvvəl, sadə, rəvan, təmiz, həm də aydın nitq sahibi olmalıdır. Hər bir şagird müəllimdən nümunə götürdüyündən, həm də uşaqların xarakteri təqlidə meylli olduğundan hər bir müəllim özündə natiqlik keyfiyyətlərini formalaşdırmağa borcludur.

A.Şaiq təkcə milli deyil, rus və dünya ədəbiyyatının, pedaqogikasının ən son nailiyyətlərindən bəhrələnirdi. Şaiqə görə hər bir müəllim metodist olmağı bacarmalıdır. O özü mütaliə etdiyi mənbələrə ayıq-sayıq münasibət göstərir, onların əsirinə çevrilmir, tədqiqatçı kimi hərəkət edirdi. Təsadüfi deyildir ki, Şaiq müəllim ədəbiyyatşünas alim kimi İ.Nəsimi, M.Füzuli, M.F.Axundov, M.Ə.Sabir, A.Səhhət, M.Hadi, H.Cavid və b. barədə sərrast və düzgün elmi fikirlər söyləmişdi. Novator müəllim, bədii yaradıcılıqda olduğu kimi, pedaqoji fəaliyyətində də daim yeniliyə can atırdı.

Yaxın dostu, müəllim həmkarı, əməl və əqidə yoldaşı görkəmli şairimiz H.Cavid doğru olaraq yazırdı: "Şaiqin yaxşı müəllimliyi tələbələrinin elm və ədəbiyyat sahəsində müəyyən mövqe tuta bilmələrinə böyük kömək göstərir". Bu sözlərdə böyük həqiqət vardır. R.Axundov, C.Cabbarlı, M.Müşfiq, Məmməd Arif, S.Rüstəm, M.Hüseyn, Niyazi, Y.Məmmədəliyev, Ə.Bədəlbəyli, F.Əfəndiyev, S.Vəzirov, Tağı Şahbazi, A.Əfəndiyev və onlarca belə elm, mədəniyyət və dövlət xadimləri Şaiqin tələbələri olmuşlar. M.Hüseyn düzgün olaraq qeyd edir ki, Şaiqi minnətdarlıqla xatırlayanlar arasında keçmiş tələbələri olan yüzlərlə mühəndis, aqronom, həkim, dövlət xadimi və partiya işçiləri də vardır.

F.Köçərli, R.Əfəndiyev, M.Ə.Sabir, A.Səhhət, F.Ağazadə, Ü.Hacıbəyli, M.Mahmudbəyli, S.S.Axundov, H.Cavid, S.M.Qənizadə və b. fədakar pedaqoqlarla birlikdə Abdulla Şaiq Azərbaycan maarif tarixinə şanlı səhifələr yazmışdır. Vaxtilə A.Şaiqin dərs dediyi, onun adı ilə bağlı olan nümunə məktəbini — "Şaiq məktəbi"ni bitirən tələbələr respublikamızın ali məktəblərinə imtahansız qəbul olunublar. Azərbaycan dilində orta təhsil sistemi bünövrəsinin təşkili, ana dilində ilk məktəblərin yaradılması, ilk pedaqoji ali məktəbin açılması A.Şaiqin adı ilə sıx bağlıdır.

1923-cü ildə görkəmli ədib-pedaqoqun pedaqoji fəaliyyətinin 20 (əslində 23) illiyinə həsr olunmuş yubiley gecəsi — "Şaiq gecəsi" çox yüksək səviyyədə keçirilmiş və bu münasibətlə xüsusi kitabça buraxılmışdı. Abdulla Şaiq Azərbaycan maarifçiliyi tarixində metodik məktəb yaradan pedaqoqdur.

2. Proqram və dərslikləri.

Professor C.Əhmədovun yazdığına görə, A.Şaiq on bir dərsliyin müəllifidir. Özündən qabaq yaşayanlar və müasirləri arasında bu qədər dərslik yazan ikinci bir müəllif tanımırıq. "Uşaq gözlüyü", "Uşaq çeşməyi", "Gülzar", "Müntəxəbat", "Türk çələngi", "Milli qiraət", "Gülşəni-ədəbiyyat" və s. belə dərsliklərdəndir. Şərikli yazdığı "Ədəbiyyat dərsləri" və "Ədəbiyyatdan iş kitabı" kimi dərsliklər ali məktəb tələbələrinə ünvanlanıb və ədəbiyyatın tarixinə, nəzəri məsələlərinə həsr olunub. Görkəmli tənqidçi Mustafa Quliyev yazırdı ki, A.Şaiq belə dərsliklərlə bu gün yaradılmaq üzrə olan dil və ədəbiyyatımızın təməlini quranlardan biri oldu.

Həmçinin, mütəxəssislər göstərirlər ki, A.Şaiqin dərsliklərində və təcrübəsində bugünkü işimizdə də istifadə edilə biləsi cəhətlər çoxdur. Müəllif dərslikləri tərtib edərkən birincisi, uşaqların səviyyəsini və yaş psixologiyasını hökmən nəzərə alırdı. İkincisi, dərsliklərə salınan bədii materiallar öz əksini ədəbi-pedaqoji və tərbiyəvi xarakteri ilə, həmçinin dil sadəliyi baxımından seçilirdi.

A.Şaiq dərslik yazmağa da metodiki-tədqiqat işi kimi baxırdı. O, tədris prosesində pedaqoji müşahidələr aparır, dərsliklərinin, onlardakı ayrı-ayrı mövzuların şagirdlər tərəfindən necə qavranılmasına xüsusi diqqət yetirir və daim onları təkmilləşdirirdi. Qiymətli cəhətlərdən biri də o idi ki, Şaiq müəllim L.N.Tolstoy, K.D.Uşinski kimi ədib-pedaqoqların dərslik sahəsindəki qabaqcıl, mütərəqqi işlərindən faydalanırdı. Belə uğurlu fəaliyyətin nəticəsi kimi, məsələn, müəllimlərin "Gülzar" dərsliyini müasirləri "gözəl və ətirli güllər bitən və bitirən gülüstanla" müqayisə edirdilər.

A.Şaiq yalnız ibtidai və orta deyil, ali məktəblər üçün də Azərbaycan ədəbiyyatından dərs vəsaiti hazırlamışdır. olmuşdu. Sonralar, tələbəsi olan akademik Məmməd Arif yazırdı: "Əslində ali məktəblərdə keçilən Azərbaycan ədəbiyyatı tarixi kursunu yaratmaq A.Şaiqin üzərinə düşmüşdü və o bu ağır işin öhdəsindən şərəflə gəldi".

Şaiq müəllimin, ümumən, pedaqoji fəaliyyətini pedaqoq-yazıçı Qafur Əfəndizadə belə səciyyələndirir: "Şaiq olmasaydı, "milli qiraət"imiz yox idi, "Müntəxəbat" nəşr olunmamışdı. "Ədəbiyyat dərsləri"ndən məhrum idik. "Türk çələngi"ni görməmiş, "Türk ədəbiyyatı"nı eşitməmişdik. Əgər bu kitablar olmasaydı, məktəblərimiz yoxsul, müəllimlərimiz yalavac qalmışdı".

3. A.Şaiqin tədris üsulları və yeni pedaqoji təfəkkür. Düzdür, A.Şaiqin və onunla həmkar olan ləyaqətli müəllimlərin fəaliyyət göstərdiyi keçən yüzilliyin 20-30-40-50-ci illərində "Təhsilin humanistləşdirilməsi yolu ilə yeni pedaqoji təfəkkürün inkişafı" kimi qərar qəbul olunmamışdı. Fəqət, Abdulla Şaiq dil-ədəbiyyat müəllimi kimi, hər şeydən əvvəl, tədris etdiyi fənnin xarakterinə əsaslanırdı. O, çox yaxşı bilirdi ki, ədəbiyyat söz sənətidir, obrazlı təfəkkürün məhsuludur. Odur ki, xatirələrdən də gördüyümüz kimi, Şaiq müəllim tədris prosesində sinifdə emosional mühit yaradır və dinləyənlərin hisslərinə tə'sir etməklə onların bütövlükdə düşüncəsini səfərbərliyə alırdı. Xalqımızın minlərlə övladını tərbiyələndirmiş təcrübəli pedaqoq dərsi elə qururdu ki, nəfəsləri içinə çəkib onu son dərəcə böyük maraq və diqqətlə dinləyən şagirdlər zəngin vurulduğuna ancaq təəssüflənirdilər. Şaiq müəllim şagirdlərə mövzunu dərsdə öyrətməyə çalışırdı. Təbiətən humanist olan pedaqoq istər məktəbdə, istərsə də dərsdə keçdiyi siniflərdə şagirdin yaxşı oxuya bilməsi və yaxşı oxumaq istəməsi üçün əlverişli şərait yaratmağa çalışırdı. Bunun üçün Şaiq müəllim birinci növbədə, uşaqların meyl və maraqlarını, tələbatlarını öyrənir, dərsləri də bu axarda qurmağa çalışırdı. Tələbələrindən xalq şairi S.Rüstəm yazır: "O, (A.Şaiq — S.A) hər tələbənin qəlbinə nüfuz etməyi bacarırdı, öz tələbələrinin hansı ailədə, nə kimi şəraitdə yaşadıqlarını yaxından öyrənir və hər tələbəyə onun xasiyyətinə görə yanaşmağı bacarırdı".

"Böyük didaktika"nın müəllifi Y.A.Komenski: "Sən ata (yəqin ki, həm də ana!) kimi hərəkət etmirsənsə, müəllim kimi fəaliyyət göstərə bilməzsən", — deyirdi.

İndiki zaman məsafəsindən Şaiq müəllimin pedaqoji fəaliyyətinə boylananda heyrətlənməyə bilmirik. Bu gözəl müəllim sanki öz rəngarəng tədris üsulları ilə intuitiv olaraq, yeni pedaqoji təfəkkürün bir çox məsələlərini reallaşdırmağa nail olmuşdur. Xalq yazıçısı M.Hüseyn sevimli müəllimi haqqında yazırdı ki, A.Şaiq dərs verdiyi tələbələri öz doğma balaları kimi sevən həqiqi bir xalq müəllimidir. Yaxud başqa bir tələbəsi Saleh Salayev göstərirdi ki, onun necə bir müəllim olduğunu bilmək üçün mütləq tələbəsi olmaq lazımdır. Belə misalların sayını istənilən qədər artıra da bilərik.

A.Şaiq qarşısındakı şagirdlərə şəxsiyyət kimi baxan, onların hər birinə potensial subyekt kimi yanaşan, hərtərəfli inkişaf etmələrindən ötrü əlindən gələni əsirgəməyən, məktəbi, məktəbşünaslığı ə'la bilən qabaqcıl pedaqoq olub. Təkrar edirik: əlimizdəki saysız-hesabsız xatirələr, onun pedaqoji irsi sübut edir ki, Şaiq müəllimin fəaliyyətində yeni pedaqoji təfəkkürə xas olan bir çox aspektlər özünü aydın göstərmişdir.

Şaiq müəllim şagirdlərinin inkişafını da ardıcıl izləyirdi. Onun fəaliyyətində Arximed lingi-inkişafetdirici və tərbiyəedici tə'lim əsaslı yer tuturdu. Yeni pedaqoji təfəkkürün prinsiplərindən biri olan fərdiləşdirməni də Şaiq müəllim tədris prosesində yüksək qiymətləndirirdi. Tələbələrindən görkəmli bəstəkarımız Ə.Bədəlbəyli yazır: "Bakıdakı birinci realnı məktəbdə A.Şaiq yuxarı hazırlıq sinfinə qəbul olunmuş şagirdləri bir-bir yoxladıqdan sonra onları iki qrupa ayırdı: Heç savadı olmayanlar, az-çox savadlılar. Birincilərə "Uşaq gözlüyü", ikincilərə isə "Gülzar" dərsliyindən dərs keçməyə başladı. Həm də müəllimin rəhbərliyi ilə "gülzarçılar", "gözlükçülərlə" məşğul oldu və onları özlərinə çatdırmağa sə'y göstərdi".

Şaiq müəllim tədris üsulu ilə dərslərdə monoloqa deyil, dialoqa geniş yer verir, interaktiv metoda xas olan şagirdlərlə qarşılıqlı fəaliyyət göstərməyə xüsusi diqqət yetirirdi. O, dərs dediyi məktəbdə müxtəlif dərnəklərin, birinci növbədə, dram dərnəyinin, məktəb kitabxanasının olmasına böyük əhəmiyyət verir, repertuar seçməkdə, rol bölüşdürməkdə dərnək üzvlərinə yaxından kömək edirdi.

Yenə də xatirələrə əsasən deyə bilərik ki, saysız-hesabsız tələbələri arasında bir dəfə də olsun onun əsəbiləşdiyini görən olmayıb. Bəlkə belə bir şərait yaranmırdı? Ola bilsin ki, yaranırdı, fəqət, A.Şaiq böyük hərflə yazılan, xalis Müəllim olduğundan hər şeyi pedaqoji məharətlə yoluna qoyurdu. Sinifdə heç vaxt qanqaraldan situasiya baş vermirdi. Müəllimlə şagirdlər arasında qarşılıqlı hörmət və məhəbbət vardı.

Odur ki, bə'zən müəllim həmkarlarımla söhbət zamanı eşidəndə ki, müəllimdə zabitə, boy-buxun olmalıdır ki, şagird, yaxud tələbə qorxsun, çəkinsin, o saat Şaiq müəllim yadıma düşür. Arıq, çəlimsiz, ortaboylu Şaiq müəllim. Fəqət, məharətli müəllim, nüfuzlu şəxsiyyət, ustad pedaqoq olan Şaiq müəllim! Şaiq müəllimin bir pedaqoq kimi fəaliyyətini yeni pedaqoji təfəkkürlə bağlayan bağlar, mə'nəvi əlaqələr möhkəmdir və çoxdur. Bu, ayrıca tədqiqat mövzusudur. 60 ilə yaxın ədəbi-pedaqoji, 35 ildən çox sırf pedaqoq kimi fəaliyyət göstərmiş A.Şaiqin pedaqoji fəaliyyəti, pedaqoji irsi çox zəngindir. Burada çağdaş dövrümüzə, həyata keçirməkdə olduğumuz məktəb islahatına lazım olan rasional cəhətlər çoxdur.

Gözəl sənətkar, böyük müəllim, müəllimlər müəllimi olan A.Şaiq "Xasay" əsərində ilk dəfə müəllim obrazı yaratmışdır. A.Şaiq 1908-ci ildə yazdığı "Yad et" şe'rində həmvətənlərinin onu qəlbənə yad etmələrini arzu edirdi. Sözümüzü akademik B.Nəbiyevin fikri ilə tamamlamaq istərdik: "Əziz Şaiq! Vətənində izin də var, namın da! İzin müntəzəm dərc olunan əsərlərində, oynanan pyeslərində, balaların dodaqlarındakı nəğmələrdədir. Namın, yə'ni adın isə onu iftixarla daşıyan müəssisələrdə, xiyabanlarda, kitabxanalarda, məktəblərdə, mədəniyyət ocaqlarındadır". Yazıçı Qantemirin hələ 1923-cü ildə etdiyi bir arzusu da indi, heç olmasa, 2001-ci ildə Şaiqin 120 illiyini keçirdiyimiz günlərdə tamamilə yerinə düşür: "Düşünürəm ki, (Qantemir yazır — S.A) bu Sabir heykəlinin bulunduğu meydança Şaiq heykəli ilə də bəzənsə, nə qədər gözəl olardı!".

Biz də bu fikirlə tamamilə şərik olmaqla bərabər əlavə edirik: Şaiq heykəli üçün məkan Bakının hər hansı görkəmli bir yeri də ola bilər. Ancaq 1923-cü ildə izhar olunan bu arzu reallaşsaydı, nə qədər gözəl, həm də nə qədər layiqli olardı!

Sami AYDƏMİROV,
Bakıdakı 150 saylı məktəbin müəllimi.

SƏNƏTKARA BÖYÜK EHTİRAM

Azərbaycanda maarifin, uşaq ədəbiyyatının inkişafında görkəmli sənətkar Abdulla Şaiqin xidmətləri çox böyükdür. Təsadüfi deyil ki, ölməz ədibin anadan olmasının 120 illiyinin təntənəli qeyd edilməsi ilə əlaqədar ölkə prezidenti fərman vermişdir. Bakının Nəsimi rayonundakı A.Şaiq adına 54 saylı orta məktəbdə əlamətdar hadisə ilə əlaqədar ədəbi-bədii axşam keçirilmişdir. Tədbirə qabaqcadan geniş hazırlıq işləri görülmüşdür. Məktəbin ali kateqoriyalı Azərbaycan dili və ədəbiyyat müəllimi Qismət Hüseynova tərəfindən geniş və məzmunlu kompozisiya hazırlanmışdır.

Məktəbin iclas salonu bayramsayağı bəzədilmişdir. Salona məktəbin müəllimləri, şagirdləri, yubilyarın qohumları, tədqiqatçıları, A.Şaiq adına muzeyin əməkdaşları, Bakı Şəhər Baş Təhsil İdarəsinin, Nəsimi RTŞ-nin mə'sul işçiləri toplaşmışdılar. Tədbir Azərbaycan Dövlət Himninin əzəmətli sədaları altında açıldı. Ədəbiyyat müəllimi Qismət Hüseynova A.Şaiqin həyatı, zəngin ədəbi yaradıcılığı, maarifçilik fəaliyyəti ilə dinləyiciləri tanış etdi. Yubilyar uşaq ədəbiyyatının, nəsrinin, dramaturgiyasının təşəkkülündə və inkişafında, xalqın maariflənməsində böyük xidmətləri olan nadir şəxsiyyət kimi xarakterizə olundu.

Məktəbin direktoru, respublikanın Əməkdar Müəllimi Rima Hənifəyeva öz çıxışında məktəbdə yaradılmış A.Şaiq muzeyinin əhəmiyyətindən, şagirdlərin A.Şaiqlə bağlı gördükləri tədbirlərdən danışdı.

Söz qonaqlara verildi. Şairin oğlu, akademik Kamal Talıbzadə atasının ədəbi yaradıcılığının xarakterik cəhətlərindən danışdı, maraqlı xatirələr söylədi. Filologiya elmlər doktorları Kamil Vəliyev, Əflatun Məmmədov, filologiya elmləri namizədləri Sami Aydəmirov, Minəxanım Əsədullayeva, yubilyarın nəvəsi Ülkər Talıbzadə sənətkarın ədəbi fəaliyyəti barədə ürək sözlərini söylədilər. Onun böyük şəxsiyyəti gənc nəslə bir nümunə kimi göstərildi.

Ədəbi-bədii kompozisiya X"a" sinfinin şagirdləri tərəfindən hazırlanmışdı. Şagirdlərdən Ramal İbrahimov və Kəmalə Səfərovanın məclisi idarə etmələri onların böyük iste'dada malik olduqlarını göstərdi. Söz "gənc artistlər"ə verildi. İkinci sinif şagirdlərinin ifasında yubilyarın "Tıq-tıq xanım", "Tülkü həccə gedir" və "Yaxşı arxa" əsərlərinin tamaşaları göstərildi. Yaxşı ifalarına görə onlar alqışlarla qarşılandılar.

Mə'lum olduğu kimi dahi şairimiz Nizami Gəncəvinin "Şərəfnamə" əsərində Azərbaycan hökmdarı Nüşabə obrazı yaradılmış, poemanı ana dilimizə də A.Şaiq çevirmiş, sonralar "Nüşabə" adlı dram əsəri qələmə almışdır. Ədəbi-bədii axşamda həmin dramdan bir parça göstərildi. Nüşabə rolunda Arzu Əzimovanın və İsgəndər rolunda Məmməd Bayramovun çıxış edəcəyini eşidəndə salonda alqış sədaları ucaldı. Sonra Şaiqin "Xasay" pyesindən məktəblilərə aid bir parça göstərildi. Lalə Hüseynovanın ifasında A.Şaiqin "Həpimiz bir günəşin zərrəsiyiz" adlı şe'ri çox emosional şəkildə səsləndi. Heç demə illər boyu dinlədiyimiz, xalq mahnısı zənn etdiyimiz "Dəli Ceyran" mahnısının sözləri A.Şaiq tərəfindən yazılmışdır.

Axırda Nəsimi Rayon Təhsil Şö'bəsinin müdiri Müslüm Qəzənfərov çıxış edərək təhsil ocaqlarında keçirilən belə tədbirlərin tərbiyəvi əhəmiyyətindən söz açdı. Yubilyarın abidəsi önünə gül-çiçək dəstələri qoyuldu. Tədbir görkəmli sənətkara hörmət və məhəbbətin təntənəsinə çevrildi.

İSTİQLALÇI ROMANTİZMİN QAYNAQLARI

Azərbaycan ədəbiyyatı tarixinə görkəmli şair, uşaq ədəbiyyatının klassiki, müəllimlər müəllimi, dramaturq, nasir və ədəbiyyatşünas kimi daxil olmuş Abdulla Şaiq öz yaradıcılığının fikri poetik istiqaməti baxımından romantik sənətkar idi. Tədqiqatçıları onun Sovet dövründə yeni ədəbi platformaya keçdiyini sübuta cəhd etsələr də, fikrimizcə bu təşəbbüs səmərəsiz qalmış, Abdulla Şaiq ömrü boyu mənsub olduğu ədəbi cərəyanın — romantizmin estetik prinsiplərinə sadiq qalmışdır.

Ədəbi-nəzəri fikirdə "Gecikmiş romantizm" (M.Cəfər) adlandırılan XX əsr romantizminin M.Hadi, H.Cavid, A.Səhhət, S.Səlmasi, A.Divanbəyoğlu kimi nümayəndələri ilə bərabər A.Şaiq də yaradıcılığında ümumbəşəri, ümuminsani problemlər qaldırmaqla yanaşı, diqqət və sə'ylə Azərbaycanın milli tarixi taleyini ön plana çəkmiş, milli həyatımızdan, habelə milli təbiətimizdən olduğu qəhrəmanlarla şüurun oyanması işinə xidmət etmişdi.

A.Şaiq nəinki böyüklər üçün yazdığı kitablarda habelə uşaqlar üçün qələmə aldığı "Tülkü həccə gedir", "Tıq-tıq xanım", "Qoçpolad" və s. əsərlərdə gənc nəslin milli mənlik şüurunun oyanması istiqamətində misilsiz iş aparmışdır. Buna hər şeydən əvvəl ədibin yaradıcılıq konsepsiyasının əsasında dayanan, onun romantizmini qanadlandıran ideya qaynaqları imkan verirdi. Bu ideya qaynaqlarından ən başlıcası türkçülük idi. "Türkçülük türk millətini yüksəltməkdir" (Z.Göyalp) Həqiqətini bütün türk millətlərinə, öncə Azərbaycan türklərinə aid edən A.Şaiq əsrin əvvəllərində türkçülük ideologiyasını təbliğ edən, həyata keçirən öndərlərdən idi.

Mə'lumdur ki, əsrin önlərində istiqlal məfkurəsi iki əsas istiqamətdə formalaşırdı. Bir tərəfdən M.Cəlil, M.Ə.Sabir və ümumən "Molla Nəsrəddin" ədəbi məktəbi bədii yaradıcılıqda, M.Ə.Rəsulzadə isə fikri-siyasətdə azərbaycançılıq, digər tərəfdən isə, M.Hadi, H.Cavid, A.Şaiq və "Füyuzat" ədəbi məktəbi bədii fikirdə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu və Ə.Topçubaşov ideologiyada türkçülüyü formalaşdırırdılar. Bu çox çətin, zəngin və ziddiyyətli ədəbi-ideoloji proses idi. A.Şaiqin böyüklüyü bunda idi ki, o həmin prosesləri xalqın böyük təbəqələrini əhatə edən maarif, məktəb hərəkatı ilə əlaqələndirməyə nail olurdu. Böyük türkçülük və Azərbaycansevərlik idealına sahib olduğuna görədir ki, A.Şaiqə 40 illik yubiley keçirilmiş, barəsində kitab buraxılmışdı. "Ədəbiyyat tarixində nadir şəxsiyyət" (İ.Əfəndiyev) olan A.Şaiq:

Həpimiz bir yuva pərvərdəsiyiz!
Həpimiz bir günəşin zərrəsiyiz!

— deyərək bütün bəşəriyyəti, o cümlədən türk ellərini birliyə səsləyirdi. A.Şaiqin türkçülük, turançılıq ifadə edən şe'rləri sovet dövründə yasaq olunub.

Çap olunmamış əsərləri belə bir qənaətə gəlməyə əsas verir ki, A.Şaiq ruhən, qəlbən türkçü və turançı idi. O da böyük türkçülər Ə.Hüseynzadə, Qasparalı, M.F.Axundzadə, Z.Göyalp kimi milli azadlığı türk ellərinin birliyində görürdü:

Sözümü dinlə, dinlə ey qəhhar,
Bu qışı ya gözəl bahar eylə,
Ya məni gözsüz elə, kor elə,
Ya ki azadə bir diyarə çıxar.

Bu diyar istiqlalına qovuşmuş türk elləri ilə birgə nəfəs alan Azərbaycan idi. A.Şaiqin türkçülük ifadə edən ən qüdrətli şe'rlərindən biri "Arazdan Turana" adlanır:

Bingöl ətəklərində coşğun
Araz axaraq,
Yıldırımlı, qartallı qayalara
çarparaq,
Qaplan kibi kükrəyib, dəniz kibi
qabardı,
Məmləkətlər aşaraq dalğa kibi
yol aldı.
Turan, İran dolaşdım, o döndü
Qafqaz elinə,
Yaklaşınca o daşqın acıqlı Kür
nəhrinə
Haykırdı: "Ox, qardaşım, dinlə
bəni bir zaman
İztirablar içində çırpınır şimdi
Turan".

Belə ibrətli misalların sayını istənilən qədər artırmaq olar. Fəqət yüzlərlə nümunənin təhlilindən alınan yekun təqribən belə olar ki, A.Şaiq Azərbaycan romantizminə türkçülük və turançılıqdan gəlmiş böyük bir ədib və dönməz ideoloq idi. Təqribən 40 il sovet (kommunist və bolşevik!) rejiminin basıntısında yaşasa da o, heç zaman əqidəsindən dönməmiş, türkçülük onun bütün yaradıcılığının, xüsusən də A.Şaiq romantizminin diqqətli ideya qaynağı olmuşdur.

Leylaxanım QURBANOVA,
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi.

A.ŞAİQ MÜƏLLİMLİYİ İLƏ FƏXR EDİRDİ

Abdulla Şaiq Talıbzadə XX əsr Azərbaycan ictimai-pedaqoji, elmi-ədəbi, bədii fikrinin tanınmış şəxsiyyətlərindəndir. 50 ildən bir qədər artıq çoxşaxəli və çeşidli fəaliyyəti ilə o, xalqımızın maariflənməsində ədəbi irsin öyrənilməsi və təbliğində, milli ədəbiyyatın yeni bədii-estetik keyfiyyətlər qazanmasında müstəsna rol oynamışdır. Ədibin bütün həyatı, fəaliyyəti yeni nəslin maariflənməsinə yönəldilmişdi. Həyatının mə'nasını xalqa xidmət etməkdə görən A.Şaiq bədii yaradıcılığın müxtəlif sahələrində — şe'r, nəsr və dramaturgiyada eyni dərəcədə uğur qazanmış, ədəbiyyat tariximizin klassik sənətkarları səviyyəsinə yüksəlmişdir.

Abdulla Şaiqin bu zəngin yaradıcılığının üfüqlərində dan yerinin qızartısına bənzər parlaq bir işartı görünür. Bu özünəməxsusluq və xüsusi əlamət onun maarifçi və xalq müəllimi olmasındadır. Maarifçilik və müəllimlik A.Şaiq yaradıcılığının mayası, özülü və mahiyyətidir. O dramaturgiyada da, poeziyada da, nəsrdə də maarifçidir, müəllimdir.

Abdulla Şaiq Azərbaycan uşaq ədəbiyyatının yaradıcılarından biridir. Hələ XX əsrin əvvəllərində yazdığı uşaq şe'rlərində dahiyanə bir sadəlik var. Dilin sadəliyi, fikrin səmimiliyi və yadda qalması, səlist ifadə bu şe'rlərin daha tez və asan qavranılmasına səbəb olur. Odur ki, düz bir əsrə yaxındır ki, dili təzəcə açılan körpələrimizin ana laylasından sonra eşitdikləri və öyrəndikləri ədibin uşaq şe'rləridir.

A.Şaiq ictimai ədəbi fəaliyyətə XX əsrin əvvəllərində başlayıb. Həmin dövr xalqımızın tarixində ağır bir dövr idi. Əhalinin böyük bir qisminin savadsızlığı ziyalılarımızı narahat edirdi. Belə bir dövrdə A.Şaiq bir sıra tərəqqipərvər ziyalılarla əl-ələ verib xalqın maarifləndirilməsi üçün ardıcıl, sistemli fəaliyyət göstərmişdir.

Çoxillik pedaqoji fəaliyyəti dövründə o, rus-tatar məktəbində, Bakı Realnı Məktəbində, hazırlıq kurslarında, fəhlə fakültələrində, Ali Pedaqoji İnstitutda dərs deyib. A.Şaiqin yetirmələrindən biri olan akademik Məmməd ArifIə söhbətində deyib:

— Müəllimlik bizim xalqımıza ən çox lazım olan bir sənətdir. Mən müəllimlikdən aldığım zövqü heç bir şeydən ala bilmirəm. Axı mən yazıçılıqda da müəlliməm, məni yazıçılığa sövq edən də əsasən, müəllimlik olmuşdur.

Hətta "Xatirələrim" yazısında da o bu məsələyə bir daha aydınlıq gətirib: "Mən həmişə, nədənsə, yazıçılıqdan daha çox müəllimliyimlə iftixar edirəm". Görkəmli yazıçı həmişə öz müəllimlərini iftixarla yad edir, onlara minnətdarlıq duyğusunu bildirirdi: "Mən müəllimlərimi çox sevirəm. Bilmirəm, ya mən həddindən artıq xəyalpərəst bir uşaq idim, ya da onlar bu qədər nəcib insanlardılar".

Ədibin müəllimlik fəaliyyətinə başladığı XX əsrin əvvəllərində milli məktəblərdə dərs vəsaitləri demək olar ki, yox idi. Müəllimlərimiz bu sahədə xeyli çətinliklərlə üzləşirdilər. Bütün bu çətinlikləri nəzərə alan maarifpərvər ziyalılarımız "Birinci il", "İkinci il", "Üçüncü il və ya yeni məktəb" adlı yeni dərsliklər yaratdılar. Həmin dərsliklərdə M.Ə.Sabirin, A.Səhhətin və A.Şaiqin şe'rlərinə daha çox üstünlük verilmişdi. A.Şaiqin "Quzu", "Əkinçi", "Keçi", "Əkinçi nəğməsi", "Payız" kimi şe'rlərinə həmin dərsliklərdə xüsusi yer ayrılmışdı.

A.Şaiqin nəşr etdirdiyi "Uşaq çeşməyi", "Uşaq gözlüyü", "Gülzar" kimi dərslikləri milli uşaq ədəbiyyatı nümunələrinin yayılmasında böyük xidməti olub.

Müxtəlif illərdə A.Şaiq ibtidai, orta və bir qədər sonra ali məktəblər üçün bir neçə dərs vəsaiti hazırlamışdır. Onun hazırladığı "Milli qiraət", "Türk çələngi", "Ədəbiyyatdan iş kitabı" adlı dərs vəsaitləri o vaxt çox məşhur idi.

1906-cı ilin avqust ayında Bakıda müəllimlərin 1-ci qurultayı açıldı. Qurultayda A.Şaiq ana dili və ədəbiyyatın tədrisi işini yaxşılaşdırmaq üçün yeni dərsliklərin yaradılmasının zəruriliyini bildirdi. Burada H.Zərdabi, F.Köçərli, M.Mahmudbəyov, S.S.Axundov və A.Şaiqdən ibarət komissiya yaradıldı. Bu vəzifənin öhdəsindən gəlmək onlara tapşırıldı.

A.Şaiqin "Uşaq çeşməyi" dərsliyi belə bir zərurətin, ictimai sifarişin nəticəsində meydana gəldi. Bir qədər keçəndən sonra M.Mahmudbəyov, S.S.Axundov, A.Əfəndizadə, S.Əbdürrəhmanzadə və A.Şaiqin birgə hazırladıqları "İkinci il" dərsliyi ərsəyə gəldi.

Ali məktəblər üçün nəzərdə tutulan Azərbaycan ədəbiyyatı kursunun yaranmasında da A.Şaiqin müəyyən xidmətləri var. Maarifpərvər yazıçımız müəllimlik fəaliyyəti ilə, dərsliklər yaratmaq yönümündə məqsədyönlü və sistemli iş aparmaqla böyük bir ən'ənənin əsasını qoymuşdur. Sonrakı tarixi mərhələlərdə ədibin sələfləri müəllimlərinin yolunu davam etdirmiş, ibtidai, orta və ali məktəblərimiz üçün mükəmməl dərslik və başqa tədris vəsaitləri hazırlamışlar.

Xanım MUSTAFAYEVA,
Bakı Yeyinti Sənayesi Texnikumunun müəllimi.

BƏSTƏKARIN MAHNI TÖHFƏSİ

1998-ci ilin iyun ayının əvvəlləri idi. Azərbaycan Dövlət Musiqili Komediya Teatrı yenicə öz təzə tikilmiş binasına köçmüşdü. Mən səbirsizliklə teatrın bədii şurasının yığıncağını gözləyirdim. Axı, teatra yenicə tamamladığım Abdulla Şaiqin komediyası əsasında yazdığım "Bir saat xəlifəlik" operettamı təqdim etmişdim. Həmin günlərdə mən Abdulla Şaiqin oğlu — görkəmli alim, akademik Kamal Talıbzadəyə rast gəldim və ona bu haqda mə'lumat verdim. O, öz razılığını bildirib qovluğundan bir vərəq çıxardıb mənə uzadaraq, dedi: "Bu şe'ri atam indiki pedaqoji universitetin yaranması münasibətilə 1921-ci ildə yazmışdı. Şe'ri Üzeyir bəyə vermişdi ki, o tələbələr üçün marş bu günədək nə dahi bəstəkarın arxivində, nə də ki, institutda qorunub saxlanılmayıb..." Çox heyif! Kamal müəllimin arzusu o oldu ki, mən həmin şe'rə musiqi bəstələyim. O, axırda qeyd elədi ki, bu qocaman ali məktəbin yaxınlarda 80 illik yubileyi olacaqdır. Mən hörmətli akademikə həmin şe'rə — "Gənclik marşı"na musiqi bəstələyəcəyimi və'd etdim. Elə həmin il, yə'ni 1998-ci il iyunun 27-də mən öz və'dimi yerinə yetirdim. Telefonla bu haqda Kamal müəllimi muştuluqladım ki, marş hazırdır. O, sevincək bir səslə mənə öz təşəkkürünü bildirdi...

Bu il böyük ədibin, uşaq dramaturgiyasının banisi, görkəmli şair və pedaqoq Abdulla Şaiqin anadan olmasının 120 illik yubileyidir. Azərbaycan Prezidenti Heydər Əliyevin bu haqda verdiyi sərəncam buna parlaq misaldır. Elə bu yay — iyunun 26-da Abdulla Şaiqin komediyası əsasında bəstələdiyim "Bir saat xəlifəlik" operettamın ilk tamaşası da musiqili komediya teatrının səhnəsində uğurla ifa olundu. Kamal Talıbzadə premyera vaxtı məndən "Gənclik marşı"-nın taleyi ilə də maraqlandı. Mən düz 3 il öncə öz və'dimi yerinə yetirdiyimi ona xatırlatdım. O, bu marşı institutun musiqi pedaqoji fakültəsinin xoruna öyrətməyi və yaxud notunu çatdırmağımı xahiş etdi. Mən hörmətli akademikin bu arzusunu məmnuniyyətlə yerinə yetirirəm və qəzetinizin vasitəsilə onu, yə'ni "Gənclik marşı"nın notunu və şe'rini Tusi adına Azərbaycan Dövlət Universitetinin 80 illiyi münasibətilə təbrik edir, öz mahnı salamımı çatdırıram.

Qoy, Abdulla Şaiqin 80 il öncə yazılmış sözlərinə "Gənclik marşı" Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin himninə çevrilsin!

Rəşid ŞƏFƏQ.

GƏNCLİK MARŞI

Musiqisi Rəşid Şəfəqin, sözləri Abdulla Şaiqindir.

Bizik bilik, şan ordusu, Azərbaycan ordusu,
Qaranlıqlarla çarpışan ölm, ürfan ordusu!

Sevgi, ateş ocağıdır Azərbaycan ölkəmiz,
Şərqə, Qərbə işıq saçan, ateş yapan bizik, biz!
İgidlikdə, hər sənətdə ad çıxarmış nəslimiz,
Bizik bilik arxasınca gedən, ön, şan ordusu!

Köhnə, çürük qüvvələri parçalayıb yıxan biz,
Şimşək kimi parıldayan, ildırımtək çaxan biz.
Daşqın, coşqun sellər kimi hər tərəfə axan biz,
Bizik nurlu aləm quran, azad insan ordusu!

Üstümüzdə dalğalanır nur saçaqlı bayrağımız,
Elmsizlik istibdaddır, bizim böyük yağımız.
Yorulmadan çarpışaq ki, parlasın ocağımız,
Bizik qaranlığı qovan, nur saçan dan ordusu!

Bizik bilik, şan ordusu, Azərbaycan ordusu,
Qaranlıqlarla çarpışan elm, ürfan ordusu!



MAARİFPƏRVƏR ƏDİB

Abdulla Şaiqin adı ədəbiyyat tariximizə maarifpərvər, realist ədəbi məktəbin görkəmli nümayəndələrindən biri kimi daxil olmuşdur. Abdulla Şaiq Talıbzadə 1881-ci ildə Tiflisdə ruhani ailəsində anadan olmuşdur. Təvəllüd tarixini yada salan Şaiq belə yazır: "Atam Axund Molla Mustafa Süleyman oğlu o zaman Tiflis qazısının müavini vəzifəsində çalışıb, ayda 25 manat maaş alırmış. Əsli Borçalı mahalının Sarban kəndindən idi. Çox varlı olmasına baxmayaraq: "Gözün aydın, Axund əmi, oğlun oldu", - deyə onu muştuluqlayan mamaya 5 manat bağışlamışdı. Bacım Raziyyə bir saat məndən sonra dünyaya gəlmişdi. Əfsus ki, çox yaşamayıb, 3 ay sonra vəfat etdi".

Abdulla Şaiq ilk təhsilini atası Axund Mustafanın müəllimlik etdiyi altı sinifli məktəbdə almışdır. Uşaqlıq illərindən ədəbiyyata həvəs göstərən Şaiq atasının zəngin kitabxanasından istifadə etmiş və oxuduğu məktəbdə ərəb-fars dillərini öyrənməyə böyük həvəs göstərmişdir.

Şairin anası Mehri xanım Xorasana ziyarətə getmək fikrinə düşür. 1894-cü ildə Abdulla Şaiq anası ilə birgə Xorasana gedir və orada mollaxanada təhsilini davam etdirir. Bu müddət ərzində Şaiq fars dilindən başqa ərəb dilini daha mükəmməl öyrənməyə cəhd göstərir.

1900-cü ildə Abdulla Şaiq Tiflisə qayıdır. Lakin Tiflisdə çox qala bilmir. Xoşbəxtlikdən böyük qardaşı Yusif Bakıda şəhər dumasının maarif şö'bəsi tərəfindən şəhər məktəbinə müəllim tə'yin olunmuşdu. Qardaşının də'vəti ilə Şaiq anası ilə birlikdə Bakıya gəlir. 1901-ci ildə Nəriman Nərimanovun məsləhəti ilə Abdulla Şaiq orta məktəblərdə Azərbaycan dili müəllimi işləmək hüququnu almaq üçün imtahan verir. İmtahanları müvəffəqiyyətlə verdikdən sonra Bakı məktəblərinin birinə ehtiyat müəllimi tə'yin olunur. Həmin məktəbin müdiri Sultan Məcid Qəniyev idi. Bu illər ərzində Abdulla Şaiq Əbdürrəhim bəy Haqverdiyev ilə tanış olur. Çox keçmir ki, 1902-ci ildə görkəmli maarifpərvər Həbib bəy Mahmudbəyovun müdir olduğu altı sinifli məktəbin aşağı siniflərinə ana dili müəllimi tə'yin olunur.

Müəllimlik sənəti Abdulla Şaiqin yaradıcılığında dərin iz buraxır. Onun maarifpərvər yazıçı kimi püxtələşməsində məktəb böyük rol oynamışdır. Uşaqlıq illərindən şe'rə, ədəbiyyata böyük həvəs göstərən Şaiq ara-sıra şe'rlər yazır və imkan daxilində nəşr etdirir. "Niyə uçdu", "Yad et", "Həpimiz bir günəşin zərrəsiyik", "Simurq quşu" kimi şe'rləri məhz ilk qələm təcrübəsi sayıla bilər.

Bakı məktəblərində müəllimlik etdiyi dövrdə Abdulla Şaiq ədəbiyyatımızın inkişafında misilsiz əməyi olan sənətkarlardan Həsən bəy Zərdabi, Məhəmməd Hadi, Nəcəf bəy Vəzirov, Nəriman Nərimanov, Süleyman Sani Axundov, Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Hüseyn Cavid kimi nəhəng yazıçılarla tez-tez görüşür və fikir mübadiləsi keçirir. Söz yox ki, belə bir şəxsiyyətlərlə ünsiyyətdə olmaq Abdulla Şaiqin kamil yazıçı olmasında böyük əhəmiyyət kəsb etmişdi.

Müəllimlik təcrübəsi Abdulla Şaiqdə maarifçiliyə meyli gündən-günə artırır. 1921-ci ildə Şaiq ayrı-ayrı dərs dediyi məktəblərdən əl çəkib pedaqoji işini realnı məktəbdə cəmləşdirir. Gənc nəsli yeni ruhda tərbiyələndirmək, ona milli mədəniyyətimizi, dil və ədəbiyyatımızı sevdirmək məqsədini güdən şair uşaqlar üçün maraqlı əsərlər yazmağa başlayır. Dərs vəsaitinin olmamasını nəzərə alaraq "Uşaq gözlüyü" dərsliyini də bu məqsədlə yazmışdır. Hələ 1909-1910-cu illərdə "Tülkü həccə gedir", "Yaxşı arxa", "Tıq-tıq xanım", "Şələquyruq", "Murad" kimi mənzum və mənsur hekayələr yazır. Bu qəbildən olan hekayələr bu günə qədər öz təravətini itirməmiş, ədəbi-ictimai qiymətini saxlamışdır.

1920-ci ildən sonra Abdulla Şaiq orta və ali məktəblərdə çalışır. Maarif Komissarlığının tapşırığı ilə ana dili, ədəbiyyat tarixi və poetikadan proqramlar, dərsliklər və başqa elmi-metodik materiallar hazırlayır. Dərs dediyi ali pedaqoji məktəblərdə Füzuli, Vaqif, M.F.Axundov, Sabir, Cəlil Məmmədquluzadə kimi yazıçıların həyat və yaradıcılığına dair mühazirələr oxuyur və tələbələrə sevdirirdi.

Yuxarıda qeyd etdiyimiz kimi, Abdulla Şaiq hər şeydən əvvəl, bir müəllim kimi uşaqların, gənc nəslin tə'lim-tərbiyəsinə xüsusi fikir vermiş və demək olar ki, yaradıcılığının son illərinə qədər bu mövzuya dair əsərlər yazmışdır. Uşağın tərbiyəsində ən başlıca amillərdən olan əməyi Şaiq həmişə ön plana çəkmiş və öz sələflərinin fikirlərini tamamlayaraq belə bir qənaətə gəlirdi ki, insanı ancaq və ancaq əmək xoşbəxt edə bilər. Bu baxımdan Şaiq qələminin məhsulu olan "Əmək pərisinə", "Xırçın qız", "Zərbəçi" şe'rləri təqdirəlayiqdir. Şaiq zəhmətkeş insanı cəmiyyətin ən faydalı üzvü hesab etmişdir. Sadə adamların mərdliyini, zəhmətsevər adamların həyat tərzinin təsviri Şaiq hekayələrinin əsas məğzini təşkil edir. "Anabacı", "Vəzifə", "Özü bilsin, mənə nə!" hekayələrində yaratmış olduğu baş qəhrəmanlar sadə, təmiz, vicdanlı adamlardır.

Gənc nəslin tərbiyəsinə dair Şaiq bir neçə dram əsəri də yazmışdır. Onun yazdığı "Xasay", "El oğlu", "Vətən", "Qaraca qız" pyesləri uzun müddət Gənc Tamaşaçılar Teatrının repertuarından düşməmişdir. Qeyd etmək lazımdır ki, bu pyeslərin hər biri ayrılıqda şagirdlərin humanist tərbiyəsində çox böyük rol oynamışdır. Şaiq bu əsərləri yazarkən nağıllardan, dastanlardan istifadə etmişdir.

Ümumiyyətlə, Abdulla Şaiq müasir ədəbiyyat tarixində uşaq yazıçısı kimi daha çox məşhurdur. Onun yazmış olduğu "Tapdıq dədə", "Ovçu məstan", "Zəhmət və Zinət" azyaşlı uşaqların sevimli əsərləridir.

Şaiq uşaq psixologiyasını, uşaq təbiətini yaxşı bildiyi üçün əyləncəli, maraqlı hadisələri seçə bilir və kompozisiya baxımından müvəffəqiyyətli süjet qura bilir.

Gənc ziyalı nəslinin yetişməsində Şaiqin əməyi misilsizdir. Kimsəsiz, yetim uşaqları məktəbə cəlb etməkdə Şaiqin xeyli xidməti olmuşdur. Bu məqsədlə də, Şaiq maarifpərvər adamlarla sıx əlaqə saxlayır və onlara kömək göstərirdi.

Abdulla Şaiq şagirdlərə öz doğma övladı kimi baxırdı. Şairin keçirdiyi həyat yolunun özü gənclər üçün bir məktəbdir.

Şaiq təvazökar bir şəxsiyyət idi. Özündəki ən gözəl xüsusiyyətləri müəllimlərinin adı ilə bağlayır, onlardan hər zaman və hər yerdə böyük məhəbbət hissilə danışardı.

Ədalət naminə demək lazımdır ki, məhz bu xasiyyətinə görə də istər gənc nəsil, istərsə də yaşlı nəsil Şaiqi hər zaman, hər yerdə məhəbbət hissilə yad edirlər.

Baba MUSAYEV,
filologiya elmləri namizədi.